# Uşaqların Beynəlxalq Müdafiəsi Günü qeyd olunub

***1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Qəbələ şəhərində bayram şənliyi keçirilib.***

Bayram şənliyi başlamazdan əvvəl rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, müavinləri, hüquq mühafizə orqanlarının, digər idarə və müəssisələrin rəhbərləri rayon mədəniyyət mərkəzində uşaqların çəkdikləri rəsmlərdən, hazırladıqları əl işlərindən ibarət satış sərgiyə baxıblar.



Sərgidə satılan rəsmlərdən və əl işlərindən əldə olunan vəsaitin imkansız ailələrin



uşaqlarının ehtiyaclarına xərclənməsi nəzərdə tutulub.

Sonra şəhərin mərkəzindəki Heydər Əliyev Parkında bayram şənliyi başlayıb. Tədbiri giriş sözü ilə rayon uşaq gənclər inkişaf mərkəzinin direktoru Rəfiqə Şirinova açıb. O, 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününün təsis olunma tarixindən danışıb.

Rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə uşaqları, valideynləri təbrik edərək, ölkəmizdə uşaqlara dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan söhbət açıb.

Söz məktəblilərə və körpələrə verilib. Tədbirin aparıcıları–şəhər 4 nömrəli məktəbin X sinif şagirdləri Lalə Hacıyeva



və Rəşid Müzəfferov bir-birindən maraqlı, rəngarəng çıxışları tamaşaçılara təqdim ediblər.

Bayram şənliyində uşaq-gənclər inkişaf mərkəzinin «Təbəssum» rəqs qrupunun



ifasında milli və xarici ölkələrin müxtəlif rəqsləri, mərkəzin bədii qiraət dərnəyi üzvlərinin ifasında Vətənimizə həsr olunmuş kompozisiya, Qəbələ şəhər 2 və 3 nömrəli məktəblərin, Vəndam və Nic qəsəbə, Zarağan kənd körpələr evləri fidanlarının, Zarağan kənd 2 nömrəli tam orta məktəbin oğlanlarından ibarət rəqs qrupunun çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Sonda uşaq gənclər inkişaf mərkəzinin musiqi dərnəyi üzvlərinin ifasında, «Xoşbəxt olsun uşaqlar» mahnısı səslənib.

Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş bayram şənliyində rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, müavinləri, hüquq mühafizə orqanlarının və digər idarə və müəssisələrin rəhbərləri iştirak ediblər.

**Qüdrət CƏMALƏDDİNOĞLU,**
**İlkin Vəlizadə (foto),**
**«Qəbələ»**

# Qəbələdə VI Gənclər Festivalı keçirilib

***Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyləri münasibətilə Qəbələdə "Tarixin canlı səhifələri" adlı VI Gənclər Festivalı keçirilib.***

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Dövlət Sərhəd Xidmətinin, Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə rayonun Vəndam qəsəbəsində keçirilən festivalda müsəlman şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhu-



riyyətinin yaranması və fəaliyyəti dövrünün əsas məqamları peşəkar aktyorlar və tələbələr tərəfindən tarixi faktlar əsasında hazırlanan teatrlaşdırılmış meydan tamaşasında nümayiş olunub. Hər tərəfi dağlarla əhatə olunan yaşıl sahədə qurulan arenada Akademik Milli Dram, Gənc Tamaşaçılar, Rus Dram, Şəki və Mingəçevir Dövlət Dram teatrlarının aktyorları çıxış ediblər.



Layihənin elmi rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov, rejissoru xalq artisti Vaqif Əsədov, ssenari müəllifi filologiya elmləri doktoru, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri Asif Rüstəmlidir.

Festivalda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına və ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinə həsr edilmiş sərgi təqdim olunub. Gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək, xalqımızın hərb tarixini, 1918-ci ilin mart soyqırımını, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını və 23 aydan sonra süqut etməsini gənclərə əyani olaraq çatdırmaq məqsədilə keçirilən festival maraqlı səhnə hadisələri ilə yadda qalıb. Tamaşa 1918-ci ilin martında azərbaycanlıların



Novruz bayramını qeyd edərkən qəflətən quldur ermənilərin hücumuna məruz qalması və amansızlıqla qətlə yetirilməsi səhnəsi ilə başlayıb. Sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti, insanların o dövrdəki həyat tərzi milli geyimli aktyorlar tərəfindən





peşəkarlıqla canlandırılıb.

Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, rayon icra hakimiyyətinin, idarə və təşkilatların rəhbər şəxsləri, eləcə də 1500-dən çox mədəniyyət işçisi, xalq sənətkarları, gənclər və məktəblilər iştirak ediblər.

Festival atəşfəşanlıqla başa çatıb.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto),**
**"Qəbələ"**